UOT 902

**VÜSALƏ ƏLİYAROVA**
*AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun*
*"Fiziki antropologiya " laboratoriyasının elmi işçisi*
**aliyarova_vusala@mail.ru**

# SON TUNC DÖVRÜ SARIÇOBAN KURQANINDAN TAPILMIŞ AT YÜYƏNİNƏ AİD BƏZİ TUNC KÖMƏKÇİ VASİTƏLƏR HAQQINDA

DOI: https://doi.org/10.36719/2708-065X/106/247-251

*Qarabağ çoxtipli və çox dövrlü arxeoloji abidələrlə zəngindir. Onların arasında Tunc və Erkən Dəmir dövrlərinə aid kurqanlar xüsusi əhəmiyyət kəsb edir. Bu kurqanların arxeoloji tədqiqi XIX əsrin 90-cı illərində başlanmış və XXI əsrin əvvələrində davam etdirilmişdir. Qarabağda yeni sistemli arxeoloji qazıntılar 1980-cı ildən başlayaraq aparılmışdır. Həmin tədqiqatlar zamanı əvvəllər məlum olmayan kurqanlar aşkar edilmişdir. Bu kurqanlara – Borsunlu, Bəyimsarov və Sarıçoban kurqanlarını göstərmək olar. Təqdim olunan məqalədə artefaktlarının zənginliyi ilə seçilən Sarıçıban kurqanından tapılmış at yüyəninə aid bəzi köməkçi vasitələr haqqında məlumat veriləcəkdir.*

*Sarıçoban kurqanı – Azərbaycanın Ağdam rayonu Sarıçoban kəndinin cənub və cənub-qərb kənarında yerləşən torpaq kurqanlar qrupuna daxildir. Kurqanın dövrü e.ə. XII – XI əsrlərə aiddir. Kurqan haqqında ədəbiyyatlarda kifayyət qədər məlumatlar vardır. Görkəmli arxeoloq Hidayət Cəfərovun rəhbərlik etdiyi arxeoloji ekspedisiya kurqanın quruluşunu və xüsusiyyətlərini müəyyən etməklə yanaşı, qədim Azərbaycanda hərbi işlərin inkişafı ilə bağlı təsəvvürümüzü kökündən dəyişdirən yüzlərlə əşya tapmağa nail olmuşdur.*

*Açar sözlər:* Qarabağ, arxeologiya, Sarıçoban kurqanı, at yüyəni.

***Giriş***. Azərbaycanın qədim kurqanlarının öyrənilməsi , onların tədqiqi qədim tarixin bir çox qaranlıq məsələlərini aşkara çıxarmağa imkan yaratdı. Azərbaycanın ibtidai icma dövrünün arxeoloji abidələrində ata aid və atla bağlı çoxlu sayda maddi mədəniyyət nümunələrinin aşkar olunması arxeoloq H.F.Cəfərovun tədqiqatları ilə daha çox bağlıdır. Qarabağ bölgəsində apardığı arxeoloji qazıntılar nəticəsində Qafqazın qədim dövr tarixinin mühüm problemlərinə toxunan tədqiqatçı, tayfa başçılarına məxsus iriölçülü , zəngin materiallarla təqdim olunan böyük Borsunlu, Sarıçoban və Bəyimsarov kimi kurqan qəbirlərinin qədim dövrdə atın əsas nəqliyyat vasitəsi rolunda çıxış etməklə yanaşı, həm də qədim azərbaycanlıların dini təsəvvüründə də xüsusi yer tutduğunu göstərmişdir.

Beləliklə Qarabağın dağlıq ərazisində aparılmış qazıntı işləri zamanı atçılıqla bağlı məlumat əldə edilmiş, qəbir abidələrinin dövrün imtiyazlı nümayəndələrinə aid olduğu aşkar olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, həmin qəbir abidələrinin avadanlıqları içərisində dəmirin varlığına rast gəlinməmişdir. Bu faktın mövcudluğu qəbirlərin son tunc dövrünə aid olması fikrini bir daha təsdiq edir [3, s. 62].

Sarıçoban abidəsi Tərtər rayonundakı Borsunlu və Bəyimsarov kurqanlarından sonra Azərbaycanda üçüncü möhtəşəm tayfa başçısı kurqanıdır. Sarıçoban kurqanı beş kameradan ibarətdir: mərkəzi, qərb, şimal, şərq və cənub kamerası. Kurqan qarətçilər tərəfindən qarət olunsada, təsadüf üzündən şərq kamerasının bir hissəsinə və cənub kamerasına toxunulmamışdır [1, s.222]. Mərkəzi kamerada - tunc lövhələrlə bəzədilmiş taxt üzərində tayfa başçısı dəfn olunmuşdur. Qərb və şimal kameralarında isə onun silah daşıyanı və şəxsi mühafizəçisi bükülü vəziyyətdə basdırılmışdır. Tayfa başçısının ətrafında və başqa kameralarda 16 at skeletinin qalıqları aşkar edilmişdir ki, onlardan yeddisi cilovlanmış halda qalmışdır. Şərq kamerasının şərq künclərində iki bütöv at skeleti tapılmışdır. Hər iki at yüyüənli basdırılmışdır. Onların baş hissəsində iki hissədən ibarət olan qantarğalı gəmlər və hər birində müxtəlif tip tuncdan, alebastr və ya pasta inkrustasiyalı pilək – çənbərlər tapılmışdır. Kameranın şimal-qərb küncündə at qəbrinə rast gəlinmişdir. Digərlərindən fərqli olaraq burada atın başı divardan açılmış xüsusi taxçaya qoyulmuşdur. Bədəni isə digər kameralarda olduğu kimi doğranaraq üst-üstə yığılmış-

dır. Bu atın ağzında qantarğalı tunc gəm olmuşdur. Qantarğanın başları isə at başı formasında düzəldilmişdir. Atın baş hissəsində tuncdan alibastr inkrustasiyalı çənbərlər tapılmışdır [1, s.224].

Cənub kamerasının künclərində doğranmış dörd atın hissələri aşkar edilmişdir. Digər atlardan fərqli olaraq burada atların əsləhələri olmayıb. Sarıçoban kurqanı digər kurqanlardan zəngin maddi-mədəniyyət nümunələri ilə seçilir. Buradan tapılan metal məmulatları yalnız tuncdan hazırlanmışdır. Kurqandan 100-dən artıq ox ucluqları, silahlar, əmək alətləri, at əsləhələri, bəzək əşyaları (bilərzik, düymə, sancaq və s.) tapılmışdır.

Sarıçoban kompleksi içərisində çoxlu at əsləhəsi, ümumiyyətlə atla bağlı əşyalar çoxdur. Burada yuxarıda qeyd etdiyimiz kimi umbon və tağalaqvari əşyalarla ( çənbərlər) yanaşı müxtəlif tipli düymələr, çəkicvari, təkər və ya halqa şəkilli, ortası batıq barmaqvari, qarqaraşəkilli və s. əşyalar daxildir. Onlar atın cilovu, yüyəni, palanı və ya yəhərinin qayışlarını, başqa hissələrini bir-birinə bənd etmək üçün istifadə edilmişdir. Belə köməkçi əşyalara Xocalı – Gədəbəy mədəniyyəti abidələrinin at dəfn edilmiş qəbrlərində (xüsusilə Borsunlu və Mingəçevir kurqanlarında) daha çox rast gəlinmişdir. Bununla yanaşı bir çox at əsləhələri nümunələri, xüsusi ilə həm praktik əhəmiyyəti olan, həm də at bəzəyi kimi istifadə olunmuş bir sıra əşyaların analogiyasını tapmaq çətinlik törədir [1, s.228]. Söhbət tunc əsası, alebastr və ya mərmər, sədəf və ya fil sümüyü ilə inkrustasiya edilmiş, üzlüyü olan, çarpazlaşan qayışları bərkitmək üçün istifadə edilmiş xüsusi tip dairəvi-kündəvari piləк çənbərlərdən gedir. Atın yüyən, yəhər hissələrinin qayışlarını birləşdirilməsi üsulundan asılı olaraq pilək-çənbərlər bir neçə tipə bölünür. Birinci tip pilək-çənbərlərdə onun əsasını təşkil edən tunc lövhəyə dörd körpüvari qarmaq lehimlənmişdir. Onların əsası düzbucaq əmələ gətirir. İkinci tip pilək-çənbərlərdə tunc əsasən oval quruluşlu ilgək-qarmaq lehimlənmişdir. Pilək-çənbərlərin üçüncü tipində yastı tunc lövhəyə uzunsov deşiyi olan qısa tunc çubuq bərkidilmişdir. Pilək-çənbərin üst qabarıq hissəsində, həmin çubuğa ucu əlavə bəzək rolu oynayan şlyapa şəkilli yastılanmışdır (tablo 1) [1, s.229].




*Tablo 1. Sarıçoban kurqanı. At əsləhələrindən nümunələr: 1- qaytarğanlı at gəmi, (cilov) 1a – at başı fiqurlu qaytarğan; 6 – at gəmi sınığı; 2-4 – pilək çənbərlər; 5 – atəsləhəsinə aid əşya*

Sarıçoban pilək-çənbərlərinin təkcə quruluşu yox, onların inkrustasiya materialları və bunlara vurulmuş naxışlamanın süjet tərkibi çox maraqlıdır. İnkrustasiya kimi alebastr və ya xüsusi tərkibli pasta, mər-

mər, tunc sədəf, hətta gümüşdən istifadə edilmişdir. İnkrustasiya lövhələri dairəvi quruluşlu, üst hissədə qabarıq, oturacaqda yastıdır. Səthi cilalanmış pardaqlanmışdır. Alebastr-pasta lövhələri xüsusi tərkibli maddə ilə bərkidilmiş və fil sümüyü rəngində «lakla» örtülmüşdür. Lövhələrin mərkəzi hissəsi dairəli deşikli olub, buraya tunc çubuq geyindirilmiş, bəzilərinə isə sədəf və ya gümüşdən «qapaqcıq» qoyulmuşdur [1, s.229].

Beləliklə, Azərbaycanın qəbir abidələrində aşkar olunmuş at əsləhələrinin tipoloji təhlilindən məlum olur ki, b.e.ə. II minilliyin ikinci yarısından başlayaraq dövrün mühüm xüsusiyyətlərindən olan sinifli cəmiyyətə keçidin və bununla da iri tayfa ittifaqlarının meydana gəlməsi, minikli atçılığın geniş sürətdə inkişafına təkan vermişdir. Bu baxımdan da dövrün qiymətli varidatı olan at, hərb vasitəsi kimi tayfa ittifaqlarının daim diqqət mərkəzində olur [3, s.220].

Pasta və ya alebastr lövhələri bir qrup pilək-çənbərin səthi müxtəlif xarakterli naxışlarla bəzənmişdir. Onların bəzilərinin səthi iki cərgə qoşa dairələrlə naxışlanmışdır. Bu tip lövhələri olan başqa çənbərlərin bəzəyi daha mürəkkəbdir. Onlar «solyar nişanı» (günəş simvolu) əmələ gətirən, mərkəzdən ətrafa dalğavari-şüa kimi yayılan relyefli xətlərlə naxışlanmışdır.

Qeyd etmək lazımdır ki, Sarıçoban kompleksinin pasta, alebastr və ya fil sümüyünə oxşar başqa materiallarla inktustasiya edilmiş pilək-çənbərləri konstruksiya baxımından Xocalı-Gədəbəy mədəniyyətinin həm Gəncə-Qarabağ, həm də Gədəbəy qrupunun abidələri kompleksində Dovşanlı [6, s.231], Qarabulaq [7, tablo 15-16], Borsunlu [8, s.7], Gəncəçay [9, s.88-89] (yeri gəlmişkən qeyd edək ki, Gəncəçay kompleksinə həmin pilək-çənbər tipləri ilə yanaşı, Sarıçobanın başqa materialları ilə üzləşən yoğun nizə ucluğu, iki hissədən ibarət qaytarğanlı at cilovu daxil olmuşdur [10, s.181-183]. Qalakənddə [11, tablo 3-5] habelə İran və hətta uzaq Cənubi Avropa (axırıncılar e.ə.IX-VIII əsrlərə aid edilir və bədii baxımdan Azərbaycan nümunələrindən geridə qalır) abidələrində özünə analogiya tapsa da, forma müxtəlifliyi və naxışlama motivləri baxımından çox fərqlənir. Təkcə onu demək kifayətdir ki, bütünlükdə Qafqaz-Ön Asiya regionunda Sarıçobanın səthi relyefli-solyar şəkilli naxışı olan pilək-çənbərlərinə yalınz Laşiş (Tell-Cuveyir) abidəsində LB III təbəqəsində analogiya tapmaq mümkün olmuşdur. Təbəqə e.ə. 1350-1200-cü illərə aid olub dövr etibarilə bir qədər qabaqlayır. Həmin dövr daha çox böyük Borsunlu kurqanı ilə uyğunlaşa bilər. Maraqlıdır ki, Borsunlunun üç yarpaqlı-lotos çiçəyi naxışlı kündəvari pilək çənbərlərinin analogiyasına da Laşiş abidəsinin həmin təbəqəsində rast gəlinmişdir [1, s.229-230].

Pasta və ya alebastr inkrustasiyaları kimi, eyni məqsədlə istifadə edilmiş mərmər lövhələri də müxtəlif quruluşludur. Qədim sənətkarlar qara rəngli, qaramtıl-kül rəngli təbii naxışları (xətləri) olan boz rəngli mərmərdən istifadə edilmişdir. Qara rəngli mərmər düymələrdə deşiklərin içərisinə pasta və ya sədəf salınmışdır. Mərmər inkrustasiyalı, naxışlı pilək-çənbərlərin Qafqaz-Ön Asiya regionunda analogiyası bizə məlum deyil [1, s.231].

Sarıçoban kompleksində 7 komplekt at gəmi-cilovu tapılmışdır [ tablo 1, 1, 1[a], 6, tablo 2, 1, 9]. Onların altısı Zaqafqaziyada, xüsusilə Gəncə-Qarabağ zonasında geniş yayılmış bir tipə aiddir. Bu tip cilovlar iki hissədən ibarət olub, qaytarğanları hərəki olan «gəmə» keçirilmişdir. Cilovların xarici halqaları mütəhərrikdir. Qaytarğanlar da gəm kimi hərəki olub çubuqvari və ya şlyapa şəkilli sonluqla tamamlanır. Gəmə keçirmək üçün mərkəzi deşikdə başqa, qaytarğanlarda atın idarə edilməsinin asanlaşdırmaq üçün at yüyəninin qayışına keçirilən daha iki kənar deşik açılmışdır. Bu tip cilovların geniş yayılması Qafqaz-Ön Asiya regionunda atçılıq və ata sitayişin möhkəm yer tutması ilə bir vaxta təsadüf edir. Sarıçoban cilovlarından yalnız bir nüsxəsi ümumi materiallardan seçilir və təkcə Azərbaycanda deyil, Ümumi Qafqaz regionunda özünə analogiya bilmir [1, s.231].

Söhbət şərq kamerasındakı taxçaya qoyulmuş at başından götürülmüş, qaytarğanları dörd at başı fiquru şəklində düzəldilmiş cilovdan gedir [tablo 101, 1, 19]. Doğrudur, Luristan komplekslərində qaytarğanlı at fiqurlu tapıntılar az deyil. Lakin bu komplekslərin tərkibində Sarıçoban nüsxəsinin yaxın analogiyası yoxdur. Bundan başqa, həmin abidələr dövr etibarilə də (e.ə.VIII-VII əsrlər) çox sonraya aiddir. Qaytarğanların at başı fiquru ilə bəzədilməsinə e.ə.VII-V əsrlərə aid Toqar mədəniyyəti abidələrində də təsadüf edilmişdir. N.Çlenovanın fikrincə həmin sənət növü burada (Sibirdə) Luristan metal işləmə mədəniyyətinin təsiri altında təşəkkül tapmışdır [1, s.231].




*Tablo 2. Sarıçoban kurqanı. At əsləhələri. 1-9 qaytarğanlı gəmlər (cilovlar);*
*2-7, 10-13- pilək – çənbərlər; 8 – sümük qaytarğan.*

Qaytarğanlı gəmlər iki qrupa bölünür. Birinci qrupda iki hissədən ibarət olan gəmlərin tunc çubuğu əyilib birləşir. Ikinci qrup qaytarğanlar yoğun və qısa olmaqla onların birləşmə qaydası da fərqlidir. İkinci qrup at gəmləri qaytarğansızdır. Bu tip gəmlərin kənarları “ şlyapavaridir”. Qaytarğanları at başı fiquru şəklində düzəldilmiş gəm, tapılmış nüsxələr arasında öz unikallığı ilə seçilir. Sarıçoban kurqanından tapılmış bu gəm – cilovun Azərbaycan və ümumi Qafqaz regionunda analogiyası yoxdur [2, s.121].

***Nəticə.*** Guman olunur ki, Sarıçobanın at başı təsvirli cilovları, bu kompleksə daxil olan materialların əksəriyyəti kimi yerli metalişləmə ustalarının əlinin əməyi olmuşdur. Şübhəsiz, atçılıq və ata sitayiş də yerli zəminə söykənmişlər. Yeri gəlmişkən qeyd edək ki, qaytarğanları şir fiqurlu olan daha mürəkkəb quruluşlu at cilovların 1985-ci ildə Q.M.Aslanovun Gəncəçay hövzəsində (Yenikənd su qovşağı rayonu) tədqiq etdiyi kurqanlardan birində (e.ə.XVI-XV əsrlər) təsadüf edilmişdir [3, s.74].

ƏDƏBİYYAT

1. Cəfərov H.F. Qədim Qarabağ (Tarixi arxeoloji tədqiqat: tunc və erkən dəmir dövrü). Bakı, “Elm”, 2020.
2. Cəlilov B.M. Azərbaycanda qədim metallurgiya və metalişləmə. Bakı, “Elm və təhsil”, 2018, 240s.
3. Quliyev F.E. Azərbaycanın kurqan qəbrlərində at dəfni. Bakı, Elm, 2008.
4. Джафаров Г. Курганы древних правителей Карабаха: Северный Азербайджан на пороге возникновения раннего государственного строя. Баку, Елм, 2022, 144 с.

5. Иессен А.А. К вопросу о древнейшем металлургии меди на Кафказе // Изв. ГАИМК. – М.-Л., 1935, вып.120, с.7-216.
6. ZE VBGAEU 1894, s.231, şəkil 31, a v.
7. Ивановский А.А. По Закафказью, табло 7, 9 табло 1-6.
8. Джафаров Г.Ф. Борсунлу, s.7, şəkil 17.
9. ОАК за 1899, СПб, 1902, s.88-89, şəkil 184.
10. ОАК за 1899, şəkil 181-183.
11. Folfram Nagel, Eva Strommenger Kalakent ...., 606, tablo № 3-5.

**ВУСАЛА АЛИЯРОВА**
*Институт Археологии и Антропологии НАНА*

## О НЕКОТОРЫХ БРОНЗОВЫХ АКСЕССУАРАХ ДЛЯ КОНСКИХ УЗДЕЧЕК, НАЙДЕННЫХ В САРЫЧОБАНСКОМ КУРГАНЕ ЭПОХИ ПОЗДНЕЙ БРОНЗЫ

Курган Саричобан занимает особое место среди богатых курганов, расположенных в Агдамском районе Карабаха. Систематические археологические раскопки здесь ведутся с 1986 года. Саричобанский курган выделяется не только в Азербайджане, но и среди всех Кавказских памятников специфичностью погребальных камер, богатством артефактов и рядом других особенностей. Найденные в кургане металлические предметы свидетельствуют о том, насколько была развита металлургия в тот период. К металлическим предметам относятся топоры, кинжалы, наконечники стрел, подковы и т. д. можно привести пример. В ходе раскопок, проведенных в горной местности Карабаха, особенно в кургане Сарычобан, были получены обширные сведения о коневодстве и установлено, что могильные памятники принадлежали привилегированным представителям того времени. Предметы, необходимые для управление лошадьми, найденные в кургане Сарычобан, еще раз доказывает, насколько незаменимы были лошади для того периода как в качестве средства передвижения в быту, так и в борьбе с врагом во время военных действий.

*Ключевые слова:* Карабах, археология, курган Сарычобан, уздечка для лошади.

**VUSALA ALIYAROVA**
*Institute of Archaeology and Antropology of ANAS*

## ABOUT SOME BRONZE ACCESSORIES FOR HORSE BRIDLES FOUND IN THE SARYCHOBAN BURIAL MOUND OF THE LATE BRONZE AGE

Sarichoban mound occupies a special place among the rich mounds located in the Agdam region of Karabakh. Systematic archaeological excavations have been carried out here since 1986. The Sarichoban burial mound stands out not only in Azerbaijan, but also among all Caucasian monuments for the specificity of its burial chambers, the wealth of artifacts and a number of other features. Metal objects found in the mound indicate how advanced metallurgy was in that period. Metal objects include axes, daggers, arrowheads, horseshoes, etc. to give an example. During excavations carried out in the mountains of Karabakh, especially in the Sarychoban burial mound, extensive information was obtained about horse breeding and it was established that the grave monuments belonged to privileged representatives of that time. Items necessary for driving horses, found in the Sarychoban mound, once again prove how indispensable horses were for that period, both as a means of transportation in everyday life and in the fight against the enemy during military operations.

*Keywords*: Karabakh, archeology, Sarychoban mound, horse bridle.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 04 may 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Rəyçilər: t.ü.f.d. Müzəffər Hüseynov, t.e.d. Əmrah Dadaşov.*